AZƏRBAYCAN RESPUBLİKASI
SƏHİYYƏ NAZİRLİYİ

AKADEMİK ZƏRİFƏ ƏLİYEVA ADINA
MİLLİ OFTALMOLOGİYA MƏRKƏZİ

# AKADEMİK ZƏRİFƏ ƏLİYEVA ADINA MİLLİ OFTALMOLOGİYA MƏRKƏZİNİN UŞAQLARDA GÖZÜN PATOLOGİYASI ŞÖBƏSİ

Uşaqlarda gözün patologiyası şöbəsi Milli Oftalmologiya Mərkəzinin geniş profilli şöbəsidir və keçən əsrin 60-cı illərindən fəaliyyət göstərir.



Şöbə uşaqlarda gözün ön və arxa hissəsinin anadangəlmə və qazanılma problemlərinin öyrənilməsi ilə məşğuldur. Anadangəlmə kataraktalarda minimal kəsiklə (2-3 mm) İOL implantasiyası uşaqlarda 4 aylıqdan müvəffəqiyyətlə yerinə yetirilir. Buynuz qişanın anadangəlmə və qazanılma patologiyalarında keratoplastika əməliyyatları (dessement qatın soyulması ilə keratoplastika, dəlib keçən keratoplastika) geniş şəkildə həyata keçirilir. İrsi xəstəliklərin etiologiya , patogenezinin öyrənilməsində tapetoretinal abiotrofiyalar və görmə sinirinin atrofiyalarında müasir preparatlarla müalicə aparılır. Anadangəlmə qlaukomada yeni mikrocərrahi üsullar tətbiq olunur (Ahmed valve implantasiyası, kombinə olmuş trabekulektomiya + trabekulotomiya).



Şöbədə yaş yollarının anadangəlmə xəstəliklərində, kanalcıqların obstruksiyası zamanı yaş yollarının zondlanması, silikon sapların intubasiyası, dakriosistorinistomiya cərrahi əməliyyatı, gözün qoruyucu aparatının müxtəlif növ anadangəlmə və posttravmatik patologiyalarında okuloplastik cərrahi əməliyyatlar aparılır.







Uşaqlarda görmə üzvünün zədələnəmələri zamanı təcili yardım göstərmək üçün oftalmocərrah, rentqenoloq, anesteziolоq, cərrahi tibb bacısından ibarət briqada yaradılmışdır. Bu briqada 24 saat ərzində fəaliyyət göstərir.

Bu şöbənin nəzdində anesteziya altında müayinə etmək üçün müasir avadanlıqlar - exoqraf (E-Z Scan AB5500), əl yarıqlı lampası (PSL Portable Slit Lamp), tonopen (Reychter Tono Pen) ilə təchiz olunmuş otaq təşkil olunmuşdur. Burada uşaqlara cərrahi əməliyyatdan əvvəl anesteziya altında müayinələr aparılır.

Şöbədə uşaqların müalicə ilə yanaşı, əylənməsi və istirahəti üçün əlverişli şərait yardılmışdır.

